> ***Xoşbəxtəm ki, biz öz Vətənimizə, doğma Qarabağımıza qayıdırıq, Qarabağımızın tacı olan Şuşaya qayıdırıq və bu torpaqlarda əbədi yaşayacağıq! Bundan sonra heç kim bizi o torpaqlardan tərpədə bilməz!***
>
> **İlham ƏLİYEV**
> **Azərbaycan Respublikasının Prezidenti**



# Böyük qayıdış



***Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında müzəffər Azərbaycan Ordusu Ermənistanın ardıcıl təxribatlarının və yeni işğal planlarının qarşısını almaq, torpaqlarımızı azad etmək məqsədilə sentyabrın 27-dən etibarən başlanan zəfər yürüşü 44 gün ərzində qələbə ilə başa çatdı. Bu mühaibəni də ilk başlayan təcavüzkar Ermənistan oldu. Görünür, iştahaları böyük imiş və qonşu dövlətlərin əraziləri hesabına "böyük Ermənistan" dövləti yaratmaq iddialarından hələ də əl çəkməyiblər. İşğalçılar 2016-cı ildən bu yana Azərbaycan Ordusu tərəfindən aldıqları ağır zərbələrdən düzgün nəticə çıxarmadılar və havadarlarının fitvası ilə sentyabrın 27-də böyük iştah ilə yenidən hücuma keçdilər və... bu dəfə birdəfəlik dayandırıldılar.***

Hərbi əməliyyatlar çərçivəsində Azərbaycan Ordusu Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın etdi və Qarabağın döyünən ürəyi olan Şuşada Azərbaycan Bayrağı dalğalandı. Ermənistan rəhbərliyi, sanki möcüzə ilə qarşılaşmışdı. 44 gün ərzində 300-dən artıq yaşayış məntəqəsi düşməndən azad edildi. Müharibə, qan tökmək həris olan Ermənistanın baş naziri Nikol Paşinyan, gec də olsa, dərk etdi ki, çıxış yolu təslim olmaqdır. Elə də etdi.

### *Qələbəmizin rəhni*

Ermənistan üzərindəki tarixi qələbəmizin rəhni xalqın dövlət başçısına, uzun illər ərzində Ali Baş Komandanımızın formalaşdırdığı rəşadətli ordumuza olan inamı, etimadı idi. Digər bir cəhət isə Prezident – xalq birliyinin sıx vəhdəti. Sentyabrın 27-dən sonra biz bu həmrəyliyin daha da möhkəmləndiyinin şahidi olduq. Ölkədə fəaliyyət göstərən 52 siyasi partiyanın 55-i birgə bəyanat qəbul edərək, necə deyərlər, bütün umu-küsüləri bir yana qoyub işğal altında olan ərazilərimizin azad edilməsi yolunda Prezidentin ətrafında sıx birləşdiklərini, onun siyasi kursunu dəstəklədiklərini bildirdilər. Bu həmrəylik cəbhədə düşmənə qan uduran hərbçilərimizi də ruhlandırdı. "Güc birlikdədir!" deyib atalar. Dövlətimizin başçısının da "Biz birlikdə güclüyük!" deməsi həmrəyliyə çağırış idi.

Respublikamızın rəhbəri noyabrın 10-da xalqa müraciətində də qələbənin əldə edilməsində həmrəyliyin, birliyin böyük rol oynadığını diqqətə çatdıraraq dedi ki, son illər ərzində ölkəmizdə görülən işlər, mövcud olan gözəl ab-hava, xalq-iqtidar birliyi, siyasi münasibətlərin müsbət səviyyəyə qalxması, beynəlxalq nüfuzumuz, dünya müstəvisindəki fəaliyyətimiz, ordu quruculuğu... bu qələbəmizi şərtləndirdi. Hətta, fərqli siyasi baxışlara malik olan, işimizə tənqidi yanaşanlar, bir çox hallarda əsassız tənqidlər səsləndirənlər də bu dövrdə yüksək şüur nümunəsi göstərdilər. Dövlət başçısı həmişə siyasi müstəvidə fərqli baxışların olduğunu normal hesab edib. Təbii ki, müxalifət olmalıdır, bu, normaldır və demokratiyanın atributlarından biridir. Hər bir demokratik ölkədə olduğu kimi, bizdə də bütün azadlıqlar var. Əlbəttə ki, bir şey olmamalıdır – dövlətə, dövlətçiliyə müxalifətdə olmaq düzgün yol deyil. "İqtidara, dövlətə nə qədər pisdir, mənim üçün bir o qədər yaxşıdır" – fikri ilə yaşamaq olmaz: "Mən deyə bilərəm, bu günlər ərzində mən gördüm ki, milli məsələlərdə biz hamımız birləşə bilirik. Bu da bizim gələcəyimiz üçün çox önəmlidir".

Qələbəmizin əsas amillərindən biri də beynəlxalq səviyyədəki uğurlarımızdır. Prezident İlham Əliyevin müəyyənləşdirdiyi uğurlu xarici siyasət nəticəsində Qarabağın əzəli Azərbaycan torpağı olması bütün dünyaya sübut edildi. Tarixi faktlar da təsdiqləyir ki, əsrlər boyu Azərbaycan xalqı bu torpaqlarda yaşayıb. Ermənilərin isə bu torpaqlara 200 il bundan əvvəl hansı məqsədlərlə köçürülməsi sübutlarla, faktlarla dünya ictimaiyyətinə təqdim olundu.

Dağlıq Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır və bu məsələ beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapmalıdır. Dünyanın mötəbər təşkilatlarının, bütün beynəlxalq qurumların Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətli qətnamələr, qərarlar qəbul etməsi də beynəlxalq hüquq norma və prinsiplərinə əsaslanılıb. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, BMT Baş Assambleyasının, Qoşulmama Hərəkatının, İslam Əməkdaşlıq Təşkilatının, Avropa Parlamentinin və digər beynəlxalq təşkilatların qərar və qətnamələrində birmənalı şəkildə Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğu öz əksini tapıb. Dövlət başçımız da bu amillərin qələbəmizin rəhni olduğunu bildirdi: "Bu, bizə əlavə güc verdi. Əgər biz bunu etməsəydik, bu gün münaqişənin ətrafında cərəyan edən proseslər bizə böyük problemlər yarada bilərdi. Biz bu illər ərzində bir çox ölkələrlə səmimi, işgüzar, qarşılıqlı hörmət əsasında münasibətlər qura bildik, bir çox ölkələr Azərbaycanı strateji tərəfdaş hesab edir və artıq bu ifadə beynəlxalq sənədlərdə öz əksini tapır. Biz bütün qonşu ölkələrlə səmimi dostluq əsasında münasibətlər qura bildik, qarşılıqlı hörmət, qarşılıqlı inam əsasında. Əgər biz bunu etməsəydik, bu gün münaqişə ətrafında tam başqa proseslər gedə bilərdi".

### *24 ölkənin muzdluları da kara gəlmədi*

Bu müharibədə dünya ictimaiyyəti daha bir yeniliyin şahidi oldu. Azərbaycan hərb tarixinə yenilik kimi düşən strategiya tətbiq edərək, ən müasir silahlardan istifadə etməklə, habelə, minimal itkilər verərək, qısa müddət ərzində düşmənin bütün hərbi texnikasını məhv etdi, canlı qüvvəsinə ciddi zərbə vurdu. Çaşqın vəziyyətə düşmüş erməni hərbçiləri ya könüllü təslim olur, ya da silah-sursatı atıb qaçırdılar. Azərbaycan Ordusunun yüksək peşəkarlıqla apardığı işğaldan azadetmə əməliyyatı dünya üzrə müharibələrin aparılması doktrinasında ciddi dəyişikliklərə səbəb olacaq. Yüksək dağlıq şəraitində həyata keçirilən Şuşanın azad edilməsi əməliyyatı Azərbaycanın hərb tarixinin ən parlaq səhifəsidir.

Ermənistanın çətin vəziyyətə düşdüyünü, məğlubiyyətin bir addımlığında olduğunu dərk edən ölkənin siyasi və hərbi rəhbərliyi, habelə təcavüzkara havadarlıq edənlər hərbi əməliyyatları dayandırmaq üçün Azərbaycana diplomatik və siyasi təzyiqlər göstərdilər. Prezident İlham Əliyev isə qəti siyasi iradə nümayiş etdirdi, bütün təzyiqlərə mərdanə şəkildə sinə gərərək onları dəf etdi və prinsipial mövqeyindən dönmədi: "Azərbaycan torpaqları işğaldan azad edilməlidir!". Bununla yanaşı, dövlətimizin başçısı dünyanın 30-a dək aparıcı mediasına müsahibəsində ölkəmizə qarşı dünya informasiya məkanında olan hücumları darmadağın etdi. Ermənistanın və onun havadarlarının işğala və tədricən Azərbaycan ərazilərinin ilhaqına əsaslanan planları alt-üst oldu.

Ümidi hər yerdən üzülən Nikol Paşinyan muzdlu döyüşçülərə üz tutdu. Bu döyüşlərdə 24 ölkənin terrorçuları Ermənistan ordusunun tərkibində Azərbaycana qarşı vuruşdu. Lakin onlar da rəşadətli ordumuzla bacara bilmədiər. Artıq muzdlu döyüşçülərin kimliyi, hansı ölkələrdən gəldiyi də bəllidir. Qarabağda Ermənistan tərəfində muzdluların döyüşməsi barədə artıq bir çox dünya mediasında da reportajlar yer alıb. Məsələn, Fransanın FRANCE 24, "Reuters", "Associated Press" agentlikləri, "Kommersant" və Fransanın "Liberation" qəzetləri, habelə digər aparıcı informasiya agentlikləri Dağlıq Qarabağda Ermənistan ermənilləri ilə yanaşı, muzdluların da döyüşdüyü barədə informasiyalar verirdilər. Yayılan məlumatlarda bildirlir ki, 24 ölkədən Azərbaycanın sərhədlərini qanunsuz keçərək Qarabağda vuruşan xarici ölkə vətəndaşları olub. Onların arasında Fransa diasporunun üzvlərinin, Livandan gəlmiş etnik ermənilərin, 1 500 dollar müqabilində döyüşlərə qatılmış Rusiya vətəndaşlarının, ASALA terror təşkilatının, Suriya vətəndaşlarının, "VoMA" terror təşkilatında könüllü qismində qeydiyyata alınmış 255 şəxsin, ABŞ vətəndaşı olan 29 etnik erməninin, qaniçən terrorçu kimi tanınan erməni əsilli Belarus vətəndaşlarının, Belçika vətəndaşlarının olduqları öz təsdiqini tapıb.

Araşdırmalar zamanı məlum olmuşdur ki, muzdlu döyüşçülər arasında Braziliya, Danimarka, Hindistan, Fələstin, Avstraliya vətəndaşlarının da olduğu təsdiqlənib. Bütün muzdlu döyüşçülərin sənədləri, onların ad və soyadları, ünvanları artıq bəllidir. Faktlar bir daha təsdiqlədi ki, Ermənistan ordusunda muzdlu döyüşçülər, əsasən də terrorçular o qədər də az deyilmiş.

Göründüyü kimi, 24 ölkədən gəlmiş muzdlu döyüşçülər də Ermənistan ordusunun köməyinə çata bilmədi. Onlar Azərbaycan Ordusu qarşısında diz çökmək məcburiyyətində qaldılar. Bundan sonra regionda Azərbaycanın maraqlarına cavab verən yeni siyasi reallıq yarandı və Azərbaycan vətəndaşlarının 30 ilə yaxın davam edən torpaq həsrətinə son qoyuldu. Prezident İlham Əliyev nəyi necə və nə zaman etməyi özünün yaxşı bildiyini bir daha nümayiş etdirdi.

### *Qarabağımıza qayıdırıq*

2016-cı ilin Aprel döyüşləri nəticəsində 2 min hektardan artıq ərazimiz və strateji əhəmiyyətli yüksəkliklər, o cümlədən, Lələtəpə yüksəliyi ordumuzun nəzarətinə keçəndən sonra Cocuq Mərcanlıda yaşamaq təhlükəsi aradan qaldırıldı. Qısa müddət ərzində bu kənddə hər cür infrastruktura malik 50 ev inşa edildi, yollar əsaslı şəkildə yenidən quruldu, məktəb, uşaq bağçası tikildi, yeni iş yerləri açıldı. Həmin kəndin sakinləri böyük həvəslə ata-baba yurdlarına qayıtdılar. Sonradan daha 100 ev tikildi və artıq Cocuq Mərcanlı dünya tanıdı. Bununla da bütün məcburi köçkünlərdə öz ocaqlarına qayıdacaqları barədə inam yarandı. Bu inamı Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, polad iradəsi və uğurlu xarici siyasəti yaratmışdı. Hər dəfə məcburi köçkünlər üçün yeni qəsəbələr salınanda dövlətimizin başçısı və birinci xanım açılış mərasimlərində iştiak edir, yurd-yuvalarından didərgin salınmış soydaşları əmin edirdilər ki, onlar öz doğma el-obalarına qayıdacaqlar. Deyilənlər, verilən vədlər artıq reallığa çevrildi. Azərbaycan və Rusiya prezidentlərinin, eləcə də, Ermənistanın baş nazirinin noyabrın 10-da birgə imzaladıqları bəyanat mahiyyət etibarilə Ermənistanın kapitulyasiyasıdır. Döyüş meydanında məğlubiyyətini dərk edən Ermənistanın rəhbərliyi Prezident İlham Əliyevin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtləri qəbul etdi və kapitulyasiya şərtlərinə razılığını verdi. Bununla da Qarabağa Böyük Qayıdışın əsası qoyuldu.

Bəyanatın 6-cı bəndindən bir məqamı diqqətə çatdırmaq istərdik: "Ermənistan Respublikası 15 noyabr 2020-ci il tarixinədək Azərbaycan Respublikasına Kəlbəcər rayonunu, 1 dekabr 2020-ci il tarixinədək isə Laçın rayonunu qaytarır"... Müəyyən şərtlərə görə, ermənilərin Kəlbəcər rayonundan çıxması üçün əlavə 10 gün vaxt verildi. Deməli, heç bir döyüş əməliyyatı aparılmadan, qan tökülmədən 27 il işğal altında olan ərazilərimiz sakitcə boşaldılır və həmin yaşayış məntəqələrinin sakinlərinin – soydaşlarımızın 27 illik yurd həsrətinə son qoyulur.

Bəyanatın 7-ci bəndi bu faktı bir daha təsdiqləyir: "Daxili məcburi köçkünlər və qaçqınlar Dağlıq Qarabağın ərazisinə və ətraf rayonlara BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Ofisinin nəzarəti altında geri qayıdır". Yəni, Böyük Qayıdış təhlükəsiz həyata keçiriləcək.

Dövlətimizin başçısı xalqa müraciətində də bildirdi ki, məcburi köçkünlər üçün hər cür şərait yaradılsa da, onların əsas arzusu doğma torpaqlara qayıtmaqdır və məndən xahiş edirdilər, cənab Prezident, qaytar bizi: "Mən də hər dəfə onlarla görüşəndə həm onlarda güclü iradə görürdüm, yenilməzlik görürdüm, dövlətə sədaqət görürdüm, eyni zamanda, onların gözlərində nisgil, həsrət görürdüm. Buna son qoyulub, əziz soydaşlarım, gözünüz aydın olsun, siz qayıdırsınız, biz qayıdırıq, Azərbaycan qayıdır! Azərbaycan öz ərazi bütövlüyünü bərpa edir. Bundan da böyük xoşbəxtlik ola bilərmi?!"

Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun bu tarixi qələbəsi bizim haqqımızda uydurulmuş məğlub xalq sindromunu birdəfəlik sındırdı və inamımızı özümüzə qaytardı. Bütün dünya gördü ki, Azərbaycan xalqı heç vaxt məğlubiyyətlə barışmayacaq və gec-tez öz amalına qovuşacaqdır. Qovuşdu da. İşğal altında olan torpaqlarımızın azad edilməsinin ən başlıca səbəbi isə Prezident İlham Əliyevin son 17 ildə həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası, Prezident –xalq birliyinin sıx vəhdətidir.

*Əliqismət BƏDƏLOV,*
*"Xalq qəzeti"*